**AMEA Riyaziyyat və Mexanika İnstitutunu "Beynəlxalq əlaqələr" şöbəsinin 2018-ci il üçün fəaliyyəti haqqında**

**H E S A B A T**

Hesabat dövründə beynəlxalq əlaqələr şöbəsi Azərbaycan MEA-nın Riyaziyyat və Mexanika İnstitutu və AMEA-nın Beynəlxalq Əlaqələr İdarəsinin elmi və elmi-təşkilat mövzusuna uyğun olaraq öz fəaliyyətini həyata keçirirdi.

Azərbaycan MEA-nın tərəfindən keçirdiyi beynəlxalq tədbirləri çərçivəsində şöbə, İnstitut alimlərinin və xarici elmi mərkəzləri arasında əməkdaşlığın və beynəlxalq əlaqələrin qurulması və inkişafı üçün imkan yaradırdı. Hesabat zamanı şöbə Beynəlxalq fondlar tərəfindən maliyyələşdirən bir neçə müsabiqələri (qrantları) İnstitut əməkdaşlarına təqdim etmişdir.

Hesabat zamanı şöbəsinin İnstitutunun rəhbərliyinin dəstəyi ilə bir sıra xarici elmi təşkilat və İnstitutları ilə elmi-təşkilati əlaqələr qurulub. Bunlarda aşağıdakıları qeyd etmək olar:

1. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu və Voloqda Dövlət Universiteti arasında elmi-texniki əməkdaşlıq haqqında müqavilə.

Bağlanma tarixi – 16 fevral 2017-ci il
İmzalanıb – RMİ-nun direktoru professor Misir Mardanov
akademik L.İ. Sokolov

2. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu və Pitirim Sorokin adına Sıktıvkar Dövlət Universiteti arasında elmi-texniki əməkdaşlıq haqqında müqavilə.

Bağlanma tarixi – 20 oktyabr 2017-ci il
İmzalanıb – RMİ-nun direktoru professor Misir Mardanov
prof. Olqa Sotnikova

3. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu və M. Lomonosov adına Arxanqelsk Şimal Federal Universiteti arasında elmi-texniki əməkdaşlıq haqqında müqavilə.

Bağlanma tarixi – 23 may 2017-ci il
İmzalanıb – RMİ-nun direktoru professor Misir Mardanov

4. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu və **Naberejnı Çelnı Dövlət Pedaqoji Universitet** arasında elmi-texniki əməkdaşlıq haqqında müqavilə.

**Bağlanma tarixi** – 20 oktyabr 2017-ci il
**İmzalanıb** – RMİ-nun direktoru professor Misir Mərdanov
professor A.A. Qaliakberova

İnstitutun elmi əməkdaşların arasında informasiya yayılmışdır və bir sıra beynəlxalq elmi proqramlar və müsabiqələrdə iştirak etməsi üçün kömək göstərilmişdir:

**1. Almaniyanın Federal Təhsil və Tədqiqat Nazirliyi 2018-ci il üçün "Yaşıl İstedadlar" müsabiqəsi.**

Müsabiqədə davamlı inkişaf sahəsi üzrə hazırda maqistratura/doktorantura pilləsində təhsil alan və yahud son 3 il ərzində maqistr/fəlsəfə elmləri doktoru dərəcəsini almış, həmçinin mükəmməl İngilis dilini biliklərinə sahib olan namizədlər iştirak edə bilər.

**2. YUNESKO-nun taqaüd proqramı.**

YUNESKO-nun Hamburq şəhərində yerləşən Omürboyu Öyrənmə İnstitutu

Tərəfindən tədqiqatlar və mütəxəssislər üçün təqaüd proqramı elan edilmişdir. Namizədlərin seçimi zamanı onların məqalələr, tədqiqat işləri, proqram vasitələri və siyasəti hazırlamaq potensialına diqqət yetiriləcək, seçilən şəxslər 1 ay ərzində sözügedən İnstitutda tədqiqat aparmaq ve kitabxanadan istifadə etmək imkanı əldə edəcəklər.

**3. Beynəlxalq Balzan Fondu tərəfindən "Balzan Mükafatları 2018".**

Mükafat aşağıdakı sahələr üzrə nəzərdə tutulmuşdur: Sosial antropologiya (Social Anthropology); Qlobal tarix (Global History); Maye Mexanikası (Fluid Dynamics); Kimya Ekologiyasi (Chemical Ecology).

Müsabiqədə iştirak uçun tələblər: namizədliyin irəli sürülməsi səbəbləri və mühüm nəşrlərin siyahısı; ictimai va humanitar elmlər üzrə namizədlər üçün mühüm nəşrlər daxil olmaqla biblioqrafiya; texniki va təbiət elmləri uzrə namizədlər üçün 10-20 ən mühüm nəşrlərinin siyahısı; namizədlərin hazırda tutduğu vəzifəsi, əsas akademik fəaliyyatı, anadan olma tarixi va yeri, milliyəti, yaşadıgı yer va ünvan daxil olmaqla CV forması; yeni çəkilmiş şəkil (yüksək keyfiyyətli). Hər Balzan Mükafatı 750 000 Isveç frankı dəyərindədir. Qalib olmuş alim mükafatın yarisini alacaq, ikinci yarısı isə qalibə gənc alimlərin daxil olduğu elmi-tədqiqat layihəsi üçün təqdim ediləcək. Tədqiqat layihəsi Mükafat Komitəsi tərəfindən təsdiq ediləcək.

**4. Tüba Academy Prızes - 2018.**

«Tüba Academy Prızes - 2018» tanınmış və görkəmli alimlərin dəstəyin əlaməti kimi 2015-ci ildə ilk dəfə elan edilmişi. TÜBA ACADEMY PRIZES hər il elmin bir neçə sahələrindən birində görkəmli alimlərə verilirlər:

1) Fundamental və mühəndislik elmləri;

2) Sağlamlıq və həyat haqqında elmlər;

3) İçtimai və humanitar elmlər.

Mükafat hər bir kateqoriyada verilir və hər il mükafatlardan biri Türkiyənin elmi cəmiyyəti ilə əlaqəli elm insanlarına verilir, Türkiyədə çalışan və/və ya tədqiqatları Türkiyənin öyrənilməsinə həsr olunmuş elmlər. TÜBA AKADEMİYASI MÜKAFATI, müxtəlif elm sahələrində orijinal, qabaqcıl və yeni işlərə sahib olan alimlərə verilir. Namizədlər TÜBA əməkdaşlıq edən TÜBA üzvləri, akademiyalar və təşkilatlar tərəfindən, eləcə də digər akademik qurum və namizədlər kimi dəvət olunmuş alimlər tərəfindən irəli sürülür.

**5. 2018-ci il üçün İspaniya Krallığının Asturiya Şahzadəsi Fondunun müsabiqəsi**.

Asturiya Şahzadəsi Mükafatlarına müsabiqə elan edilmişdir. Müsabiqə incəsənət, ədəbiyyat, rabitə və humanitar elmlər, ictimai elmlər, elmi və texniki tədqiqat (riyaziyyat, astronomiya və astrofizika, fizika, kimya, təbiyyət elmləri, sahiyyə texnologiyalar), beynəxalq əməkdaşlıq kateqoriyaları üzrə keçirilir və bəşəriyyətin inkişafına mühüm töhfələr vermiş şəxs, qrup və ya teşkilatlara təqdim edilir.

Hesabat zamanı bir neçə xarici elmi mərkəzlərin və Universitetlərin nümayəndə heyətləri İnstitututun rəhbərliyi və əməkdaşları ilə görüşüblər. Sentyabr ayının 25-də Bolqarıstan Elmlər Akademiyasının nümayəndə heyəti Riyaziyyat və Mexanika İnstitutunda olub. Nümayəndə heyətinin tərkibinə BEA-nın sədr müavini, müxbir üzv Vasil Nikolov, bu müəssisənin baş elmi katibi, professor Evdokia Paşeva və Sofiya şəhərinin merinin müavini, arxeologiya üzrə fəlsəfə doktoru, dosent Todor Çobanov daxil idilər.

20 iyun 2018-ci il tarixində məşhur Çin riyaziyyatçısı, Pekin Beynəlxalq Riyazi Tədqiqatlar Mərkəzinin direktoru, professor Tian Gang öz nümayəndə heyəti ilə birgə AMEA Riyaziyyat və Mexanika İnstitutunda olub. Professor Tiang Gang çıxış edərək səfərin məqsədinin RMİ-nin fəaliyyəti ilə tanışlıq və gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmək olduğunu deyib.

Hesabat dövründə Riyaziyyat və Mexanika İnstitutunun elmi işçiləri xarici konfranslarda və simpoziumlarda iştirak edirdilər, həmçinin bir sıra aparıcı xarici elmi mərkəzlər və Universitetlərdə ezam etmişlər:

1. **Pənahov Qeylani Minhac oğlu** - AMEA-nın müxbir üzvü, şöbə müdiri, Çin Xalq Respublikası, Pekin ş. 17.03.2018 - 05.04.2018; dəvət edən tərəfin dəstəyi ilə, birgə elmi-texniki müqavilə çərçivəsində.

2. **Abbasov Eldar Mehdi oğlu** – aparıcı elmi işçisi, t.e.n., Pekin ş. 17.03.2018 - 05.04.2018; dəvət edən tərəfin dəstəyi ilə, birgə elmi-texniki müqavilə çərçivəsində.

3. **Quliyev Vaqif Sabir oğlu** - AMEA-nın müxbir üzvü, elmi işlər üzrə direktor müavini, 20.04.2018 – 04.05.2018; Rusiya Federasiyası, Rostov ş., Beynəlxalq konfransda plenar məruzə ilə çıxışı.

4. **Bəndəliyev Rövşən Əlifağa oğlu** – fizika-riyaziyyat elmləri doktoru, professor, 20.04.2018 – 04.05.2018; Rusiya Federasiyası, Rostov ş., Beynəlxalq konfransda iştirak etməsi.

5. **Bilalov Bilal Telman oğlu** - AMEA-nın müxbir üzvü, şöbə müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor, 02.05.2018 – 06.05.2018, Rusiya Federasiyası, Moskva ş., V. İlyinski 90 illiyinə həsr olunmuş Beynəlxalq konfransda iştirakı.

6. **Əliyev Soltan Əli oğlu** - fizika-riyaziyyat elmləri doktoru, professor, 06.05.2018 – 23.05.2018, Ukrayna, Dnepr ş., birgə elmi araqşdırmalar.

7. **Quliyev Əbdulrəhim Fərman oğlu** - fizika-riyaziyyat elmləri doktoru, professor, 10.05.2018 – 16.05.2018, Türkiyə, İstanbul, Beynəlxalq konfransda iştirakı.

8. **Bilalov Bilal Telman oğlu** - AMEA-nın müxbir üzvü, şöbə müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor, 10.05.2018 – 16.05.2018, Türkiyə, İstanbul, Beynəlxalq konfransda iştirakı.

9. **Aslanov Ramiz Mütəllim oğlu** - şöbə müdiri; Rusiya Federasiyası, Moskva ş. 18.05.2018 - 29.05.2018. Beynəlxalq elmi konfransda iştirak etmək məqsədi ilə.

10. **Babyev Əli Əvəz oğlu** - şöbə müdiri; Rusiya Federasiyası, Sankt-Peterburq ş., 25.05.2018 – 03.06.2018. Beynəlxalq elmi konfransda iştirak etmək məqsədi ilə.

11. **Quliyev Vaqif Sabir oğlu** - AMEA-nın müxbir üzvü, elmi işlər üzrə direktor müavini, 17.06. – 23.06.2018, Qırğızıstan, Bişkek ş., Beynəlxalq konfransda iştirak etməsi.

12. **Bəndəliyev Rövşən Əlifağa oğlu** - fizika-riyaziyyat elmləri doktoru, professor, 03.09.2018 – 08.09.2018; Gürcüstan, Batumi ş., Beynəlxalq konfransda iştirak etməsi

13. **İsmaylov Vüqar Elman oğlu** - şöbə müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor, 07.09.2018 – 15.09.2018; Türkiyə

14. **Quliyev Vaqif Sabir oğlu** - AMEA-nın müxbir üzvü, elmi işlər üzrə direktor müavini, 17.06. – 23.06.2018, Türkiyə, Kirşehir ş.

15. **Bilalov Bilal Telman oğlu** - AMEA-nın müxbir üzvü, şöbə müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor, 30.09.2018 – 06.10.2018, Rusiya Federasiyası, Ufa ş., Beynəlxalq konfransda iştirakı.

16. **Aslanov Ramiz Mütəllim oğlu** – 14.10.2018 – 28.10.2018, şöbə müdiri; Rusiya Federasiyası, Moskva, Kazan, Naberejniye Çelnı, Beynəlxalq elmi konfransda iştirak etmək məqsədi ilə.

Şöbə müdiri,

t.e.n., dosent Eldar Abbasov